# "İsmayıl Şıxlı" biblioqrafiyası çap olunmuşdur




**2019-cu ilin mart ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ədəbiyyatşünas, yazıçı, ssenarist, publisist, pedaqoq İsmayıl Şıxlının (Şıxlinski İsmayıl Qəhrəman oğlu) anadan olmasının 100 illiyi tamam oldu. Bununla bağlı ölkə Prezidenti İlham Əliyev 28 yanvar 2019-cu ildə "İsmayıl Şıxlının 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Bu sərəncama uyğun olaraq ölkədə bir sıra tədbirlər keçirilmiş, mətbuat səhifələrində yazıçının həyat və yaradıcılığını əhatə edən materiallar dərc edilmişdir, radio və televiziyada bir sıra verilişlər hazırlanmışdır.**

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası da öz ənənəsinə sadiq qalaraq "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "İsmayıl Şıxlı" adlı biblioqrafiyanı hazırlayaraq nəşr etmişdir. Biblioqrafiyada yazıçının həyat və yaradıcılığını əhatə edən zəngin materiallar toplanmışdır. Yazıçı haqqında ilk biblioqrafiya Azərbaycan Respublikasının Dövlət Kitabxanasında 1982-ci ildə R.Əhmədov tərəfindən tərtib edilmişdir.

İsmayıl Şıxlının bədii və elmi yaradıcılığı həcmcə o qədər böyük olmasa da, müasirlik və sənətkarlıq baxımından onun yaradıcılığı son dövr ədəbiyyatının nailiyyətlərindən hesab edilir. O, ən çox mütaliə edilən və müxtəlif xalqların oxucularının diqqətini cəlb edən ədiblərimizdəndir. Əsərləri rus, gürcü, Belarus, özbək, ingilis, fransız, ispan dillərinə tərcümə edilmişdir. Məhz buna görə son 37 il ərzində tanınmış yazıçı haqqında kifayət qədər əlavə materialların çap edildiyini nəzərə alan Milli Kitabxananın əməkdaşları ədibin 100 illiyi ilə bağlı daha fundamental biblioqrafiyanı hazırlayaraq çap etməyi qərara almışdır. Oxuculara təqdim edilən bu biblioqrafiya daha da təkmilləşdirilmiş, yeni bölmə və yarımbölmələr əlavə edilmiş, son illərin materialları tam ardıcıllıqla əhatə edilmişdir. Biblioqrafiyada İ.Şıxlının kitabları, dövri mətbuatda, dərsliklərdə məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, redaktə etdiyi kitablar, rus və başqa dillərdə çap olunmuş əsərləri habelə ədibin həyat və yaradıcılığını əks etdirən bütün nəşrlər verilmişdir. Göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, əlifba sırası gözlənilmişdir. Biblioqrafiyada ilk dəfə olaraq verilmiş "İsmayıl Şıxlının əsərləri dünya kitabxanalarında" bölməsində toplanan sənədlər əbədiyaşar sənətkarın irsinin bütün dünyada çox geniş yayılmasının əyani sübutudur. "Əlavələr" bölməsində toplanan Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin fondunda mühafizə olunan arxiv materiallarında əhatə olunması biblioqrafiyanın əhəmiyyətini daha da artırır. Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə sonda yazıçının əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri də tərtib edilmişdir.

Biblioqrafiyanı tərtib edənlər Mətanət İbrahimova və Gülbahar Misirova, elmi redaktoru professor, Əməkdar mədəniyyət işçisi Kərim Tahirov, "Ön söz"ün müəllifi filologiya üzrə elmlər doktoru, professor Buludxan Xəlilov, redaktoru Əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyeva, nəşriyyat redaktoru Mehriban Cəfərovadır.

"İsmayıl Şıxlı" biblioqrafiyası ədəbiyyatşünaslar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Milli Kitabxanada "İsmayıl Şıxlı" biblioqrafiyasının təqdimat mərasimi keçirilmişdir. Mərasimi giriş sözü ilə açan kitabxananın direktoru, professor, Əməkdar incəsənət xadimi Kərim Tahirov yazıçının həyat və yaradıcılığına qısa nəzər salaraq ədibin anadan olmasının 100 illiyi ilə bağlı biblioqrafiyanın təkmilləşdirilmiş formada ikinci dəfə nəşrinin vacibliyindən danışdı. Bu məqsədlə yazıçının əsərlərinin yer aldığı və işıqlandırıldığı bütün mənbələrdən yüksək səviyyədə istifadə edildiyini, elə bu səbəbdən fundamental bir biblioqrafiyanın ərsəyə gətirildiyini vurğuladı.

Təqdimat mərasimində çıxış edən akademik Nizami Cəfərov, professorlar Qəzənfər Paşayev, Buludxan Xəlilov, İntiqam Qasımzadə, şair Nəriman Həsənzadə, şair-publisist Rəşad Məcid, Məti Osmanoğlu və başqaları İ.Şıxlının həyat və yaradıcılığından söz açaraq onun haqqında bəzi xatirələrini danışdılar və ədibin 100 illiyi ərəfəsində belə bir göstəricinin hazırlanaraq çap edilməsini yüksək dəyərləndirdilər.

Tədbirin sonunda İsmayıl Şıxlının oğlu Elçin Şıxlı atasının həyat və yaradıcılığını əhatə edən bu fundamental biblioqrafiyanın ərsəyə gəlməsində zəhməti olan Milli Kitabxananın bütün əməkdaşlarına öz təşəkkürünü bildirdi.

**Adilə QOCAYEVA,**
**AJB-nin üzvü.**

Respublika.- 2019.- 28 aprel.- S.4.